## 1 noyabr 2015-ci ildə beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə əlaqədar Qəbələ rayonunda vətəndaşların sərbəst toplaşmaq azadlığını təmin etmək, eləcə də əyani təşviqat üçün xüsusi yerlərin ayrılması haqqında

"Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin VI bəndinə və Azərbaycan Respublikası Seçki Məcəlləsininn 11-ci, 75.2-ci, 86.3-cü və 86.7-ci maddələrinə əsasən Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlığı prosesində seçkiqabağı təşviqat işlərinin aparılması ilə əlaqədar yığıncaqların, mitinqlərin, nümayişlərin keçirilməsi və əyani təşviqat üçün Qəbələ rayonunda xüsusi yerlərin ayrılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsinə hazırlıq prosesində vətəndaşların sərbəst toplaşması və təşviqat işinin aparılması məqsədilə Qəbələ rayonunun şəhər, qəsəbə və kəndlərində 42 qapalı, 60 açıq və əyani təşviqat üçün 78 yer, o cümlədən Qəbələ şəhəri ərazisində qapalı yer Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin akt zalı, açıq yer Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin stadionu ayrılsın.
2. Sərəncam "Qəbələ" qəzetində dərc olunsun.

**Başçı: Səbuhi Abdullayev.**
*18 sentyabr 2015-ci il.*

## Rabitə və yüksək texnologiyalar naziri Qəbələdə bölgə vətəndaşlarını qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər. Növbəti belə qəbul sentyabrın 19-da rabitə və yüksək texnologiyalar naziri Əli Abbasov tərəfindən Qəbələdə keçirilmişdir. Qəbuldan əvvəl nazir Əli Abbasov Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevlə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş və ulu öndərin əziz xatirəsini dərin ehtiramla yad etmişlər. Sonra Əli Abbasov Qəbələ, Şəki, Oğuz, İsmayıllı rayonlarından gələn vətəndaşları dinləmişdir. Onların müraciətləri əsasən telekommunikasiya, internet, poçt, televiziya və radio yayımı xidmətlərinin keyfiyyəti, eləcə də işə qəbul, yeni elektron ATS-lərin çəkilişi və sair məsələlərlə bağlı olmuşdur. Qəbula gələn vətəndaşların hər birini diqqətlə dinləyən nazir Əli Abbasov müraciətlərin bəzilərini aydınlaşdıraraq həlli istiqamətində tapşırıqlar vermiş, bir sıra məsələləri yerindəcə həll etmişdir. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər isə müvafiq nazirlik və təşkilatlara göndərilməsi məqsədilə qeydiyyata götürülmüşdür. Qəbulda 25-ə yaxın vətəndaş iştirak etmişdir. Onlar yerlərdə keçirilən belə görüşlərə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirmişlər.



**«Qəbələ».**
**Foto İ. Vəlizadənindir.**

# Qəbələdə qurban bayramı

## Qəbələdə Qurban bayramı mərasimləri keçirilmişdir

Müsəlman dünyasının ən böyük və müqəddəs bayramlarından biri olan Qurban bayramı bu il miladi tarixi ilə sentyabrın 24-ü və 25-nə, hicri tarixi ilə zilhəccə ayının 10-na təsadüf edir.

Təlatümlər içərisində yaşanmasına baxmayaraq müsəlman aləminin əksər ölkələrində bu ilki Qurban bayramını çox təntənə ilə qeyd etdi. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu, möhtərəm Prezidentimiz İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyi uğurlu daxili və xarici siyasət sayəsində sabitliyin və əmin-amanlığın hökm sürdüyü Azərbaycanımızda Qurban bayramı xüsusi təmtəraqla keçdi.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etdi, xoş arzularını bildirdi.

Ənənəyə uyğun olaraq Qəbələ şəhərində bu ilki Qurban bayramının da əsas tədbiri şəhərin mərkəzindəki, yaşı bir əsrdən çox olan məsciddə keçirildi.

Sübh tezdən dindarlar Qurban bayramı namazında iştirak etmək üçün məscidə toplaşdılar.

Rayon məscidinin imam müavini Saleh Şirinov toplaşanlara Qurban bayramının tarixindən, onun əsas xüsusiyyətlərindən, bütün müsəlman aləmində xüsusən vətənimiz Azərbaycanda Qurban bayramının ildən-ilə daha yüksək səviyyədə keçirilməsindən danışdı. S. Şirinovun çıxışında ölkə rəhbərliyi xüsusən dövlətimizin başçısı İlham Əliyev tərəfindən milli mənəvi dəyərlərə yüksək qiymət verilməsindən, onun daha da genişləndirilməsi üçün görülən tədbirlərdən bəhs edildi. Qeyd olundu ki, Qurban bayramı özü tolerantlığın bir nümunəsidir. Çünki bu bayramda dinindən, irqindən asılı olmayaraq hər bir kasıba, imkansıza yardım etmək savab sayılır.

Saat doqquzun yarısında dindarlar məscidin içərisindəki geniş salonda bayram namazı qılmağa toplaşdılar.

Bayram namazı bitdikdən sonra məscidin həyətində xeyirxah insanların gətirdikləri qurbanlıq heyvanların kəsilməsinə başlandı. Qurban payları məscidin həyətinə toplaşmış şəxslərə paylandı. Bundan başqa məscidə gəlməyə imkanı olmayan az təminatlı insanlara da qurban payı ayrılaraq göndərildi. Ümumilikdə 1000 nəfərdən çox insana qurban payı çatdırıldı.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, icra hakimiyyəti aparatının digər məsul işçiləri, idarə və müəssisə rəhbərləri, iş adamları, xeyriyyəçilər bayram mərasimində iştirak edirdilər.

Qurban bayramı mərasimləri rayonun bütün qəsəbə və kəndlərində keçirilmiş, imkansız və az təminatlı ailələrə qurban payları çatdırılmışdır.

**Qüdrət SƏMƏDOV.**

## Müqəddəs bayram

Dünya müsəlmanlarının müqəddəs bayramlarından olan Qurban bayramı respublikamızın hər bir bölgəsində böyük təntənə ilə qeyd olundu. Bu bayramın gəlişi özü ilə bərabər sevinc, bol bərəkət, ruzi bəxş edir. Qurbanlıq heyvanlar kəsilib bütün ailələrə paylanılır. Bu müqəddəs bayramın təntənəsi Qəbələ rayon Tarix-diyarşünaslıq muzeyində də yaşanır. Muzeydə müqəddəs amal sayılan bayramın ayinlərini həyata keçirilir. "Xoş niyyət" içtimai birliyinin rəhbəri həmyerlimiz Minirə Qarayeva da hər il olduğu kimi bu ildə qurban kəsərək muzey əməkdaşlarına paylayır. Allah bütün qurbanları qəbul etsin, AMİN!

**«Qəbələ».**

## Görüş

21 sentyabr 2015-ci il tarixdə Vəndam qəsəbə sənətkarlıq evində Vəndamın bir qrup ağsaqqalları ilə birgə tədbir keçirildi. Tədbir Vəndamın tarixi adət-ənənələri maraqlı şəxsiyyətləri ilə bağlı idi.

Tədbiri sənətkarlıq evinin direktoru Azər Azayev açaraq qonaqlara xoş gəldin dedi və sözü qəsəbə 1 saylı məktəbin müəllimi İbad Paşayevə verdi. O, qəsəbənin alimləri və tanınmış şəxsiyyətləri barəsində məlumat verdi. Sonra isə söz ağsaqqal Oqtay Mikayılova verildi. O da kəndin adət və ənənələrindən danışdı, qarşıdan gələn qurban bayramının xüsusiyyətləri barədə tədbir iştirakçılarına məlumat verdi. Gənclərdən A. Eyubova, N. Bağırov çıxış edərək gənclərin vətənə bağlılığından danışdılar, nümunə göstərdilər. Sonda YAP Vəndam ərazi təşkilatının sədri Sadıq Sadıqov gənclərə öz tövsiyəsini verdi. Sənətkarlıq evinin direktoru A. Azayev tədbir iştirakçılarına öz səmimi təşəkkürünü bildirdi.

**Elçin AZƏROĞLU,**
**Vəndam qəsəbəsi.**